# ŞƏMKİRDƏ DÖVLƏT BAYRAĞI GÜNÜ QEYD EDİLİB





**Respublikanın hər yerində Dövlət Bayrağı Gününün qeyd olunmasına start verilmişdir. Şəmkir rayonunda Dövlət Bayrağı Günü münasibətilə keçirilən tədbir uzun müddət yaddaşlardan silinməyəcək. Nəfəsli orkestrin müşayiəti ilə dövlət himni səsləndikdən sonra Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, əsgərlər və rayon ictimaiyyətinin nümayəndələri, Şəhidlər Xiyabanından Bayraq Meydanına yürüş ediblər.**

Şəmkir şəhərində yerləşən “N” saylı hərbi hissənin əsgərləri 100 metr uzunluğunda olan Azərbaycan bayrağını Şəhidlər Xiyabanından Bayraq Meydanına gətirib, sonra məktəblilər əllərində üçrəngli Azərbaycan bayraqları ilə marş sədaları altında tədbir iştirakçılarının qarşısından keçiblər. Yolboyu insanlar bu möhtəşəm tədbiri maraqla seyr edir, şəkillər çəkir və tədbir iştirakçılarını alqışlayırdılar.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov çıxış edərək üçrəngli bayrağın hər bir azərbaycanlı üçün məhəbbət simvoluna çevrildiyini qeyd edib, ölkə başçısı cənab İlham Əliyevin dövlət bayrağının müqəddəsliyi istiqamətində həyata keçirdiyi tədbirlərdən danışıb.

Qeyd edib ki, dünyada ilk hündür bayraq Azərbaycanda, Bakıda ucaldılıb, məhz burada bayraq muzeyi yaradılıb. Şəmkirin Bayraq meydanında dalğalanan bayraq isə hündürlüyünə görə respublikada ikinci ən uca bayraqdır.

Bayram tədbirində Azərbaycan bayrağının tezliklə Ali Baş Komandan İlham Əliyevin apardığı düşünülmüş siyasət nəticəsində Dağlıq Qarabağda da dalğalanacağına əminlik ifadə olunub.

Sonra musiqi kollektivləri Vətənə, qəhrəmanlığa aid konsert proqramı və məktəblilər Azərbaycan Bayrağına həsr olunmuş şeirlərlə tədbir iştirakçıları qarşısında çıxış ediblər.

**Vəli VƏLİYEV,**
**“Respublika”.**

Respublika.-2019.-9 noyabr.- S.5.